# Respublika Günü münasibətilə silsilə tədbirlər

***Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı 28 May – Respublika Günü münasibətilə Bakı Musiqi Akademiyası ilə birgə tədbir keçirmişdir. Tədbirdə YAP Gənclər Birliyinin fəalları, Birinci Qarabağ və Vətən müharibəsi iştirakçıları, eləcə də, Bakı Musiqi Akademiyasının müharibə veteranları tələbələri və qaziləri iştirak etmişlər.***

Tədbir şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlandı. Sonra BMA-nın məzunu, bəstəkar, qazi Vüqar Məmmədzadənin bəstələdiyi "Zəfər marşı" səsləndirildi. Bakı Musiqi Akademiyasının rektoru, professor Fərhad Bədəlbəylinin tədbir iştirakçılarına video-müraciəti təqdim edildi.

YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı çıxışında 2020-ci ildə Azərbaycanın şanlı və qəhrəman ordusunun müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm qələbənin dövlətimizin gücünün düşmənə, həm də bütün dünyaya göstərdiyini bildirdi. Qeyd etdi ki, şanlı zəfərimiz ordumuzun yenilməzliyini, xalq, ordu və müzəffər Ali Baş Komandan arasındakı monolit birliyi bir daha təsdiqlədi. Natiq Ali Baş Komandan İlham Əliyevin işğaldan azad edilmiş torpaqlarımıza hər səfərinin erməni təcavüzkarlarına və onları dəstəkləyən qüvvələrə "Dəmir yumruq" mesajı olduğunu vurğuladı.



Bakı Musiqi Akademiyasının qazi tələbələri çıxış edərək, rəşadətli ordumuzun qəhrəmanlığından, öz növbəsində, müharibə təəssüratlarından, düşmənə divan tutduqlarından söhbət açdılar. BMA-nın tədris işləri üzrə prorektoru, professor Nərminə Quliyeva, beynəlxalq əlaqələr, ictimaiyyətlə əlaqələr və sosial məsələlər üzrə prorektor, professor Yeganə Axundova, elmi işlər üzrə prorektor, professor Gülnaz Abdullazadə, akademiyanın həmkarlar ittifaqının sədri Aqil Qafulov və digərləri çıxış edərək Prezident, Ali Baş Komandan İlham Əliyevin düşünülmüş siyasəti nəticəsində qazanılmış zəfərdən və müharibə iştirakçılarının misilsiz şücaətlərindən bəhs etdilər.

Çıxışçılar Vətən müharibəsində iştirak etmiş BMA-nın tələbə və məzunlarının simasında bütün igid əsgərlərimizə təşəkkürlərini bildirdilər və şəhidlərimizin ölməz xatirəsini ehtiramla yad etdilər.

***Ə.BƏDƏLOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 27 may.- S.13.